Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
29 iyul / 2021

# Narahat olma anam, oğlun şərəfli bir amal uğrunda şəhid oldu




**Bu gün şəhid ətirli bir xəbər döydu göz yaşlarının qapısını... Müqəddəs şəhid qanıyla islanmışdı bu xəbər. Əziz anam, bu xəbər qulağına çatmamış sənin ürəyin narahat və nigaran çırpıntılarla açmışdı səhəri... Axı... analar övladın ağrısını qabaqcadan fəhm edir - deyirlər. Şəhadət köynəyi geymiş oğlunun səsini duymuşdun elə bil...**

"Qurban olum, oğul balam, haçan gəlirsən" - deyə soruşmuşdun yuxuda. Oğlun pıçıldamışdı, Mən gəlmişəm, ana, sənə Şuşanın havasından, İsa bulağının suyundan bir ovuc gətirmişəm. Xarı bülbülün ləçəyindən bir misra gətirmişəm ana... Yadındadır, uşaq vaxtı yurd yerlərindən danışardın... Bax, indi, o yerləri əynimə geyib gəlmişəm ana, sinəmdə şəhid ətri, üstümdə üçrəngli bayrağımın təbəssümü. Bunların hamısını sənə gətirmişəm, ana. İndi özün dur, vətənə göz aydınlığı ver, 30 illik həsrətin bitib-de-yurdum! Canım, ana, indi mən də sənə şəhid ətrini, bayraq təbəssümünü əmanət gətirmişəm. Sən axı həm də vətənsən, anam mənim, sən heç vaxt əmanəti unutmazsan...

Əziz anam, oğlun şəhidlik şərbətini dadmayana kimi onu heç kim tanımırdı. Boyük Allah onun alın yazısına çox müqəddəs bir kəlamı yazıbmış... Anam ta qədimdən elimizdə bir deyim var: Oğul düşmən çəpəridir. Əziz anam, oğul deməyimin bir səbəbi var. Bəlkə də bu oğul hansısa ailənin son övladı idi. Boyabaşa çatdırana kimi hansı zülmləri çəkmişdin? Narahat olma anam, oğlun çox şərəfli bir amal uğrunda şəhid oldu. Bəlkə də bu oğul arxasında bir övlad, gözü yaşlı bir gəlin qoymuşdu, nə bilmək olar axı? Sabah oğulu, qızı şəhid övladı adlandırılacaqdı. Bu uşaqların atasızlığını vətənə bağışla anam. Mənasız media xəbərlərinə dəyər verənlər sabah sənin oğlun üçün bir köşə ayıracaqmı görəsən? Ayırmasa da bağışla, anam.



**Bilmirəm ana. Amma sən yenə də bağışla. Sənin oğlunun öz canından əziz tutduğu vətənə bağışla. Bütün günü mənasız verilişlərlə millətin intellektini alçaldan bəzi televiziyalar sənin oğlunu göstərəcəkmi? İnanmıram anam. Ana təkcə sənin oğlun deyil. O bütün Azərbaycanın oğludur. Axı o, sənin üçün can verməyib, o Azərbaycan üçün can verib. Biz dərk etmirik. Narahat olma çox-çox uzaqlarda analar gecələr qorxan uşaqlarına sənin oğlundan danışacaq. Deyəcək səngərdə qar qış demədən sərhəddə dayanan, şəhadət şərbətini içməyə**



**hazır olan igidlər var. Narahat olma sənin oğlun uşaqların nəfəsində, anaların duasında yaşayacaq.**

44 gunluk vətən savaşını min illik Zəfər tarixinə döndərənlərin anasısan, canım anam. Sənin göz yasların Allaha məktubdur, hər gün mələklər oxuyur və müqəddəs şəhid ruhlarına "salam" göndərir. Hər gün müzəffər ordumuzun Ali Bas Komandanı şəhid oğulların xatirəsini anır və onların doğmalarına ehtiramını bildirir. Canım anam, bu yurdda səndən böyük ürək sahibi, səndən uca varlıq yoxdur. Göz yaşı qoxulu əllərindən, oğul itkisinin həyəcanından, ağrısından rəngi qaçmış tellərindən öpürəm. Şəhid ətirli anam, bu vətənin qeyrət bayrağı sənsən!

**Allah bu uca yurdu və səni qorusun!**

**Telli Sənəm Borçalı,**
**şair- publisist**